2019-cu ilin yanvar-aprel aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 330716 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur. Sənaye istehsalının 96,2 faizi malların, 3,8 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 22188,1 min manatlıq, qeyri-dövlət sektorunda 308527,9 min manatlıq məhsul istehsal edilmişdir.

2019-cu ilin yanvar-mart aylarında muxtar respublikanın sənaye müəssisələrində 16597 nəfər işçi çalışmışdır ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz artaraq 382,5 manat olmuşdur.